# AVTOMATIK İDARƏETMƏ SİSTEMLƏRİ

| | |
|---|---|
| Fənn: | Avtomatik İdarəetmə sistemləri |
| Səviyyə: | Baza, ümumi əsaslar |
| Müddət: | 5 gün |
| Təlimatçılar: | t.e.n İlhami Süleymanov, Səməd Hüseynov, Səadət Süleymanova |

Bu intensiv baza kursları sənayedə istifadə olunan informasiya texnologiyaları və müasir idarəetmə sistemlərinin əsasları, onların tərkibi, istifadəsi üçün zəruri olan metod və üsullar haqda bilgilər verir. Kursun iştirakçıları neft, qaz sənayesində texnoloji proseslərin avtomatlaşdırılması, sənaye kontrollerləri, proqramlaşdırılan-məntiqi kontrollerlər və kompüter sistemlərinin tətbiqi ilə yaradılmış çoxsəviyyəli informasiya-ölçmə, nəzarət və idarəetmə sistemlərinin iş prinsipləri ilə tanış olacaqlar.

**Nəzərdə tutulur:**

**"Avtomatik idarəetmə sistemləri"** kursu ilk növbədə nəzarət ölçmə və idarəetmə sistemlərin işlənməsi, layihələndirilməsi, tətbiqi və istismarı sahəsində çalışan mühəndislər, layihələndirmə institutlarında işləyən mühəndis və layihəçilər üçün nəzərdə tutulub. Eyni zamanda ali məktəb tələbələri və maqistraturalarda istehsal proseslərinin avtomatıaşdırılması ixtisası üzrə təhsil alan tələbə və maqistrlər üçün də bu kurs praktiki əhəmiyyət kəsb edəcəkdir.

**Öyrəniləcək material:**

İdarəetmə sistemin arxitekturası, elementləri, tərkibi, neft, qaz sənayesi obyektlərində istifadə olunan sənaye kontrollerlərinin əsasları, təsnifatı, proqramlaşdırılan məntiqi kontrollerlər (PLC), idarəetmə sistemərinin aparat və dispetçer səviyyəsində isifadə olunan tətbiqi proqramların işlənməsi üçün proqramlaşdırma sahəsində zəruri olan biliklərin əsasları, müasir informasiya texnologiyalarının avtomatlaşdırılmada tətbiqi, SCADA (Dispetçer nəzarəti və idarəetmə sistemləri)

**Kursun tərkibi:**

- İdarəetmə sistemlərinin arxitekturası, Sənaye şəbəkələri və interfeysləri, İnternet texnologiyaların tətbiqi;
- Kontrollerlər;
- Təhlükəli obyektlərin avtomatlaşdırılması, Aparat yolu ilə ehtiyatlı system yaradılması;
- Proqram Təminatı – Proqram vasitələrinin inkişafı, Verilənlər Bazası;
- IEC 61131-3 standartında proqramlaşdırma, SCADA funksiyalı proqram təminatı haqda.

**Tədrisi aparan təlimçi haqqında:**

1. Süleymanov İlhami Allahverdi oğlu

Moskva Neft, Kimya və Qaz Sənayesi İnstitutunun Avtomatlaşdırma və Hesablama Fakultəsini 1983-cü ildə bitirmişdir, İnformasiya ölçmə və İdarəetmə Sistemləri ixtisası üzrə Texnika Elmləri namizədidir. 1983-2010-cu illərdə Müdafiə Sənayesi Nazirliyinin "Neftqazavtomat" Elmi-istehsalat Müəssisəsində mühəndis, elmi işçi, "İntellektual Sistemlər və diaqnostik qurğular" şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 2010-cu ildən "Neftqaelmitədqiqatlayihə" İnstitutunda baş mühəndisin Avtomatlaşdırma və İnformasiya Texnologiyaları sahəsində layihələndirmə üzrə müavini vəzifəsində çalışır. 20-dən çox elmi məqalə müəllifidir. İdarəetmə qurğuları və sistemləri üzrə aparılmış elmi-tədqiqat, konstruktor və layihələndirmə işlərinə rəhbərlik edilməsi və məsul-icraçı olaraq çoxsəviyyəli idarəetmə sistemlərinin yaradılmasının bilavasitə iştirakçısı kimi çoxillik təcrübəyə malikdir.

2. Hüseynov Səməd Namik oğlu

Azərbaycan Neft Akademiyasını "İnformasiya - ölçmə texnikası və texnologiyası" ixtisası üzrə 2010-ildə bakalavr, 2012-ci ildə isə maqistr dərəcəsi üzrə təhsilini başa çatdırmışdır. 2012-2013 illərdə Müdafiə Sənayesi Nazirliyinin "Radioquraşdırma" zavodunda Elektronika üzrə Mühəndis-konstruktor vəzifəsində işləmişdir. 2013-cü ildən "Neftqaelmitədqiqatlayihə" İnstitutunda "Avtomatlaşdırma və İnformasiya Texnologiyaları" şöbəsində 14-cü dərəcəli-mühəndis vəzifəsində işləyir. Proqramlaşdırılan məntiqi kontrollerlər bazasında idarəetmə sistemlərinin layihələndirməsi üzrə işlərdə aparıcı mütəxəssis kimi çalışır.

3. Süleymanova Səadət Vəli qızı

Moskva Neft, Kimya və Qaz Sənayesi İnstitutunun Avtomatlaşdırma və Hesablama Fakultəsini 1985-cü ildə bitirmişdir. 1985-1989-cu illərdə "NORD" Elmi-tədqiqat Müəssisəsində, 1989-2012-cu illərdə isə Müdafiə Sənayesi Nazirliyinin "Neftqazavtomat" Elmi-istehsalat Müəssisəsində mühəndis-proqramçı vəzifəsində çalışmışdır. 2013-cu ildən "Neftqaelmitədqiqatlayihə" İnstitutunda "Avtomatlaşdırma və İnformasiya Texnologiyaları" şöbəsində 14-cü dərəcəli mühəndis-proqramçı vəzifəsində çalışır. SCADA funksiyalı tətbiqi proqramların layihələndirilməsi üzrə aparılan işlərdə aparıcı mütəxəssis kimi çalışır. Obyekt yönümlü proqramlaşdırma sahəsində çoxillik təcrübəyə malikdir.

**Kursun keçirilmə yeri:**

«Neftqazelmitədqiqatlayihə» İnstitutu

Bütün kurslar institutun daxilində prezentasiya formasında keçirilə bilər. Həmçinin institut daxilində daha da dərindən kurslar təşkil oluna bilər.
Daha ətraflı məlumat almaq üçün kursun koordinatoru ilə əlaqə saxlaya bilərsiniz.
Əlaqə nömrələri: (99412) 521-19-57; Faks (99412) 521-15-15;
e-mail: office.ogpi@socar.az.

Ünvan:

«Neftqazelmitədqiqatlayihə» İnstitutu
AZ 1012, Bakı şəhəri , H.Zərdabi pr.88a